Respublika.- 2018.- 18 aprel.- S.6

Unudulmaz şair və publisist

Həyatda az-az insanlar var ki, yaradıcılıqları ilə şəxsiyyətləri vəhdət təşkil edir, mütənasiblik yaradır. Çox zaman görürsən, yaxşı şairdir, istedadlı nasirdir, amma xarakteri nöqsanlardan, qüsurlardan xali deyil. Bəzən də insan kimi kamil bir ədibin şeirini, nəsrini oxuyursan, təəssüf hissilə düşünürsən ki, kaş onun yaratdıqları da özünə bənzəyəydi, oxucu qəlbinə yol tapa biləydi...

Yaxın günlərdə itirdiyimiz qələm dostumuz Məmməd Kazımdan isə uca Tanrı heç nəyi əsirgəməmişdi. Yaraşıqlı boybuxunu və kövrək ürəyi vardı. Şair, jurnalist, nasir kimi istedadı da yerində. Bir sözlə, Məmməd müəllim hər kəsin həsəd apara biləcəyi nadir insanlardan idi. Əyilməz vüqarı, məğrurluğu şəxsiyyətini bütövləşdirirdi. Eyni zamanda, bir çətən külfət yiyəsiydi, dişiylə-dırnağıyla, qələminin ucuyla qazandığı qonorarı, məvacibi ilə ailəsini dolandırırdı. Uzaq səfərlərə, ezamiyyətlərə yollansa da, Avropa ölkələrini, keçmiş sovet respublikalarını qarış-qarış gəzsə də, cismən də, ruhən də balalarının yaşadığı Xırdalandaydı, çünki o, nə qədər çölçüydüsə, bir o qədər ev-eşiyə bağlı kişiydi, övladları ilə nəfəs alırdı.

...1934-cü ilin allı-güllü may günündə Masallı rayonunun Tatyan kəndində doğulan Məmmədin qəlbində söz haçan tumurcuqlamışdı, çiçək açmışdı, nə zaman yuxusunu qaçırıb saqqızını oğurlamışdı, xəbər tutmamışdı. Natamam orta təhsildən sonra Bakı Mədəni-Maarif Texnikumuna daxil olmuş, daha sonra Azərbaycan Dövlət Universitetində (BDU-da) ali təhsil almışdı. Tələbəlik illərindən poeziyaya maraq göstərən gənc şairin ilk qələm təcrübələri "Yeni həyat" rayon qəzetində və "Azərbaycan gəncləri"ndə dərc olunurdu. Doğma Masallıda kitabxana müdiri, məktəb direktoru vəzifələrində çalışdığı vaxtlarda Məmməd yaradıcılıqla ciddi surətdə məşğul olur, bir an belə qələmdən-kağızdan ayrılmırdı.

1966-cı ildə "Abşeron" rayon qəzetində işə başladı, sonra ailəsi ilə Xırdalana köçən Məmməd Kazım az bir vaxtda həm jurnalist kimi tanındı, həm də şair kimi ədəbi mühitdə öz yerini tutdu. Tezliklə "Gənclik" nəşriyyatında "Qönçə" (1968) adlı ilk şeirlər toplusu işıq üzü gördü. Üç il sonra həyatında daha bir dönüş yarandı. O, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin "Gənclik" redaksiyasına işə dəvət olundu. Jurnalist kimi daim axtarışda olan Məmməd Kazım bütün zamanlar üçün aktual olan mövzuda maraqlı bir proqramın — "Hünər" verilişinin əsasını qoydu və efir məkanının vasitəsiylə bütün Azərbaycanda şöhrət tapdı.

"Hünər" vətənpərvərlik verilişiydi, yaranmasının əsas məqsədlərindən biri doğma Azərbaycanımızı odlu bir məhəbbətlə sevməyi təbliğ etmək idisə, başqa bir tərəfdən Birinci və İkinci Dünya müharibələrində qəhrəmanlıq göstərmiş, həlak olmuş, itkin düşmüş övladlarımızdan soraq tutmaq, onları elə-obaya tanıtmaq idi. Məmməd müəllim böyük bir yükü çiyninə götürdü, partizan hərəkatından gizli, sirli məqamlar üzə çıxartdı. Cəsarətli qələm sahibi, Sovet İttifaqı Qəhrəmanı adınacan yüksəlmiş əfsanəvi Mehdi Hüseynzadənin silahdaşlarından faktlar topladı, silsilə süjetlər, oçerklər hazırlayıb efirə verdi. Canlı şahidlər danışdırdı ki, o, iki dəfə Sovet İttifaqı Qəhrəmanı olmuş tank qoşunları general-leytenant Həzi Aslanovun döyüş yerlərini gəzdikdən sonra qəhrəmanın sərkərdəlik bacarığından, rəşadətindən yazdı. Bəzi məxfi, qadağan edilmiş sənədləri, arxiv materiallarını araşdırdı. Bu zaman o, DTK-nın, Müdafiə Nazirliyinin təzyiqlərinə məruz qaldı, verilişləri qayçılanıb kəsildi. Dəfələrlə, danlaqlara, töhmətlərə baxmayaraq, M.Kazım öz hünərinə "Hünərin"i efir məkanından çıxarmağa qoymadı.

Vaxtilə şair-publisistlə eyni redaksiyada çalışmış polkovnik-leytenant, hərbi jurnalist Şəmistan Nəzirlinin xatirələrindən: "Bəzən həftələrlə Məmməd müəllimin səfərlərdə başı qarışıq olurdu. Gedib uzaq-uzaq ellərdə çəkilişlər aparırdı. Həmişə təzə xəbərlərlə, yeni faktlarla "Hünər"i, zənginləşdirirdi. Bir sıra gərəkli hadisələr və rəqəmlər hökumətə sərf etməyəndə veriliş "qara siyahı"ya düşürdü. Bakıda olmayanda adətən bəzi süjetlərə mən qol çəkirdim. "Hünər"də kollektiv əməyi olsa da, veriliş Məmmədin ideyasının məhsuluydu, elə bil mənəvi övladıydı. Hər şəkil, hər cümlə üstə tir-tir əsirdi. Həyəcanını gizlədə bilmirdi, "mütləq filan şey getməlidi efirə, Şəmistan, ailələr onun intizarındadı, söz vermişəm" — söyləyərdi.

Mən doğma insan, həmkar, əziz dost itirmişəm. Yoxluğuna inanmıram, Məmməd Kazımın. O qədər yeyib-içən, yaxşı geyinib-keçinməyi xoşlayan, üzündən nur tökülən şəxsiyyət idi ki, ölümü ona yaraşdırmaq mümkün deyildi. Nikbin idi, daim zəiflərə dədəlik edirdi. Xeyirxahlığına, səmimiyyətinə şübhə yox idi qardaşımın. Bu qırx gün ərzində hər gün peşəkar jurnalist dostumu, mehriban, həyatsevər, xeyirxah Məmmədi xatırlamışam, heykəli ömrümün sonunacan ürəyimdədir".

Bir neçə şeir kitabından sonra Məmməd Kazımın "Leytenant Kərimov və dostları" sənədli povesti "Yazıçı" nəşriyyatında (1980) çap olundu. Əsərin qəhrəmanları Böyük Vətən Müharibəsi illərində Polşa uğrunda gedən amansız savaşlarda şücaət göstərmiş Azərbaycan oğullarıydı. Müəllif kitaba "Ön sözü"ndə yazmışdı: "Yeddi illik axtarışların nəticəsi olan əsər, demək olar ki, bütünlüklə sənədlərə, canlı şahidlərin xatirələrinə əsaslanır. Lakin povestdə elə tərcümeyi-hallar var ki, onların genişləndirilməsi üçün əziz oxucularımızın köməyinə hələ ciddi ehtiyacımız var...".

Məmməd Kazımın "Gələrəm görüşünə" (1988) şeirlər və poemalar kitabını varaqlayıram. Təmiz hisslər, duyğular qəlbimi riqqətə gətirir, qanadlandırır. Bu şeirlərin hər biri obrazlı təfəkkürün məhsuludur, metaforalar, təşbehlər, bənzətmələr düzüm-düzümdür. "Vətən" şeirinin bir bəndinə diqqət yetirək:

Sıldırım qayandır köksümdə inad,
Məğrur qartalından almışam qanad.
Dilimi dibindən kəssə də, cəllad,
Adını dilimdən üzmərəm, Vətən!

Kitabda yer almış "Dəlidağ çiçəkləri" şeirlər silsiləsi Azərbaycan torpağının ayrılmaz parçası sayılan Kəlbəcər möcüzələrinə həsr olunub. Şair bu poetik nəğmələri qələmə alanda hələ heç murdar erməni işğalçıları Kəlbəcəri işğal etməmişdi. Bu əsrarəngiz, cənnətməkan guşənin axarlı-baxarlı vaxtıydı. "Küpəbulaq çeşmələr anası"ndan süzülən narzan mineral sular qayalıqlardan sıza-sıza məcraya doğru səmt götürür, məğrur Gəlin qayası, Dəli dağ tamaşaya durub boylanır, sərin bahar havası hər kəsin ruhunu oxşayırdı. Onda bu yerləri vaxtilə qarış-qarış gəzən Səməd Vurğunun da, dədə Şəmşirin də ruhu sakit idi. M.Kazım gözünü-könlünü sevindirən o yerləri belə vəsf edirdi:

Gəldim görüşünə, Ceyran bulağı,
Çeşmənin nur saçan gözünü öpdüm.
Dövrəndə Vurğunun, aşıq Şəmşirin
İzinə üz qoyub, sözünü öpdüm.

Məmməd Kazımın təbiət şeirləri onun Azərbaycan torpağına bələdliyinin, yurd-yuvamızı kəndbəkənd tanıdığının göstəricisiydi. Nəzərimdə "gözəllik qayaya qonmuş nağıl"dır, par-par "parıldayan daşlar muzeyə qoyulmuş" eksponatdır, müqəddəs "vətənin hər qarışı sərgi" salonudur. Düzənliyə doğru qarlı zirvələrdən guruldaya-guruldaya axan "Tərtərçay ürək dolusu nəğmə çələngidir". Onun Lerikə həsr edilən "Ucalıq-alçaqlıq" şeirində fəlsəfi tutum, məna yükü heyrət doğrucaq dərəcədə təbii və özünəməxsusdur.

Məmməd Kazım müstəqilliyimizlə öyünən, qürur hissi keçirən sənətkar idi. Bir dəfə üç kitabını mənə bağışladı. İkisi poeziya nümunəsiydi, biri nəsr. Əlbəttə, şeirlərinə bələdçiliyim vardı və təəccüblənmədim, məni heyrətləndirən irihəcmli nəsr kitabıydı. Müəllifin triologiya adlandırdığı üç kitabı Lənkəran xanlığının tarixindən bəhs edirdi. Xanlıq dövrü, ümumən, keşməkeşli taleyimizin maraqlı mərhələsidir və Məmməd müəllim böyük zəhmətə qatlaşaraq arxivlərdə araşdırmalar aparmış, toz basmış məxəzlərə baş vurmuş, xeyli sənəd, tərcümeyi-halların izinə düşmüş, onlarla tanış olmuşdur. Bununla yanaşı, İrəvan, Quba, Şəki, Qarabağ, Bakı xanlıqlarının da tarixi keçmişini nəzərdən keçirmiş, ortaya faktlara, dəlillərə söykənən kitab qoymuşdur. "Mrhəsən xanın övladları" (1997) üçcildlik kitabı ona oxucu sevgisi qazandırmışdır.

Müəllifin avtoqrafı ilə mənə hədiyyə etdiyi "Ya Peyğəmbər" (1999) poeması İslam peyğəmbəri Həzrəti Məhəmmədə (s.ə.a.s.) həsr olunmuşdu. Bu kitab M.Kazımın dini mövzuda qələmə aldığı ilk kitabı idi. İrihəcmli poemada peyğəmbərimizin qısa, ibrətamiz həyat yolu, "Qurani Kərim"in nazil olması, Peyğəmbərin Mədinəyə, Məkkəyə hicrətləri odlu bir dillə tərənnüm edilir.

"General Həzi" dörd pərdəli, on şəkilli dramdı (2000-ci il). Müəllif ilk dəfə İkinci Dünya savaşının qəhrəmanı, 35-ci qvardiya tank briqadasının komandiri, İki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Həzi Aslanovun həyatının səhnə təcəssümünü "General Həzi" dram əsərində vermişdir. Bu əsər N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında uğurla tamaşaya qoyulmuşdur.

Məmməd Kazımın sovet dönəmində çıxan kitablarından — "Zirvəyə yol axtarıram" (1970), "Xəzər laylası" (1972), "Xatın zəngləri" (1977), "Salam, general" (1983), "Taleyim, qismətim" (1984), eləcə də sonrakı illərdə nəşr edilən əsərləri göstərir ki, o, daim sönməyən bir ilhamla, böyük eşqlə yazıb-yaratmışdır.

İstedadlı şair, publisist, nasir, teleaparıcı, tərcüməçi Məmməd Kazım yaradıcılığının ən məhsuldar bir çağında haqq dünyasına qovuşmuşdur. Sağlığında ecazkar Abşeron təbiətinin vurğunu olan şairə elə bu qədim torpaq da qucaq açdı. Torpaq yastığın yüngül olsun, gözəl insan, əziz dost, yaxşı şair!

Ağacəfər HƏSƏNLİ.